AZƏRLOTEREYA
Bizə bax
COUNCIL

- ANA SƏHİFƏ
- ARAZ XƏBƏR
  - İdman Mədəniyyət İqtisadiyyat Təhsil Dünya Gündəm Siyasət Afişa Əndrəbadi xəbər Hadisə Şou-biznes(A-Z Xəbər)
- BİZ
  - Arazçılar Haqqımızda Verilişlər
- MÜSAHİBƏ
- QALEREYA
- YAYIM AXIŞI
- 

Ana Səhifə » Xəbərlər » Mədəniyyət » Çoxdan gözlənilən serial bu axşam efir həyatına başlayır - FOTO - VİDEO

## Çoxdan gözlənilən serial bu axşam efir həyatına başlayır - FOTO - VİDEO

Müəllif: admin, 30-09-2013, 12:57

- 85
- 1
- 2
- 3
- 4
- 5

**Saz 10**


Aygün Kazımova - Biletini alma

Röya - Mənəm
Röya -


Gəmiçilər
Manana - Payız
Nikki - Kəpənəklər




**“Çaqqal nəfəsi” bu gündən etibarən evinizin qonağı olacaq**

**“Kaspi Global”** pradakşının yeni layihəsi olan **“Çaqqal nəfəsi”** serialını bu gündən etibarən hər həftənin çərşənbə axşamı saat 19:10-da ATV telekanalında izləyə bilərsiniz.

Kriminal janrlı psixoloji dram olan **"Çaqqal nəfəsi"** serialının direktoru **Şamxal Həsənli**dir.

Yazıçı-dramaturq **İlqar Fəhminin "Çaqqal nəfəsi"** əsəri əsasında ekranlaşdırılan serial **dövlət sifarişi ilə** həyata keçirilir.

Serialın quruluşçu rejissoru və quruluşçu operatoru İrandan dəvət olunmuş peşəkar mütəxəssislərdir. Serialın quruluşçu rejissoru tanınmış iranlı rejissor, əslən Cənubi Azərbaycandan olan soydaşımız **Babək Şirinsifət** və quruluşçu operatoru isə **Babək Xürrəmidir.** Babək Şirinsifət Azərbaycan tamaşaçılarına ötən ilin sentyabrında Nizami Kino Mərkəzində nümayiş olunan "**Su başında durmuşuq, çinarla mən”** tammetrajlı sənədli filmindən tanışdır.

Serialın operatoru **Aydın Şirinsifət**, montaj edəni **Mehdi Pərizad**, səs operatoru **Qafur Şirinsifət**dir.

**25 seriya**dan ibarət olan serialda Azərbaycanın tanınmış aktyor və aktrisaları rol alıblar. Belə ki, aktrisa **Gülzar Qurbanova və Kəbirə Həşimli** serialın baş rollarını bölüşürlər. Serialda digər baş rolları **Səxavət Nur, Rasim Cəfər, Qurban İsmayılov, Ayşad Məmmədov** canlandırıblar.

Çəkilişlərə ümumilikdə **160-dan çox** aktyor cəlb olunub.

*Kaspi-global.com saytının verdiyi məlumata görə,“Çaqqal nəfəsi” serialının əsas ana xətti təsadüf bir qətl törətdiyi üçün həbsxanaya düşmüş 33-35 yaşlı Nərgiz adlı gənc bir qadının həbsxanadan çıxdıqdan sonra başına gələn hadisələr üzərində qurulub. Nərgiz həbsxanaya düşəndə 8 yaşlı qızı və əri var idi. Qadın həbsxanada olduğu müddətdə əri ona tez tez zəng vurur, əlaqə saxlayır, hər şeyin yaxşı olduğunu bildirir. Lakin qadının həbsdən azad olmasına iki-üç ay qalmış ərinin səsi sorağı kəsilir.*

*Həbsxanadan çıxan Nərgiz ərinin izinə düşür və ona bu axtarışda həbsxana dostu, keçmişdə biznes fəaliyyəti ilə məşğul olan Gülarə kömək edəcək. Gülarədə vaxtı ilə azadlıqda Doktor adlı biri ilə işləmiş, yalnız doktorun ona qurduğu tələ ilə işindən və azadlığından olmuşdur.*

*Gülarə ilə Nərgizin taleyinin eyni olması serial gedişatında onların yollarını birləşdirir. Hər iki qadın keçmişi ilə bağlı suallara bir birinin həyatında cavab axtarırlar.*

Serialda **80-dən artıq məkan, 35 əsas obraz və 7 baş qəhrəman** yer alıb.

Qeyd edək ki, "Kaspi Global” prodakşın ölkənin **ən böyük** pradakşınlarından sayılır. Şirkətdə çəkiliş və istehsal üçün **yalnız müasir, yüksək səviyyəli texniki avadanlıq**dan istifadə edilir. Çəkilən məhsulların montaj prosesi, qrafika işləri və səs efektləri “Adobe Premiere”, “Avid”,” Final Cut Pro X”, “ 3Ds Max”,




Natavan

Həbibi - Sən məni başa düşmürsən

Zülfiyyə X. ft Miri Yusif - İki doğma insan



Miri Yusif - Vicdan


Bəyimxanım Vəliyeva - Uçurum


Brilliant Dadaşova - Paris-London

Səs ver

"Adobe After Effects", " DaVinci Resolve" , "Pro Tools HD" proqramlarında aparılır.

Bundan başqa şirkətin **626 kv/m2 və 825kv/m2 sahəli studiyaları** var. Ayrıca **33 kv/m2, 63 kv/m2 sahəli pavilyonlar**, **6 studiya, 1 xromokey otağı, qrim və kostyum otaqları** da şirkətin nəzdindədir.






Çaqqal nəfəsi


Çaqqal nəfəsi


Çaqqal nəfəsi


Çaqqal nefesi


Çaqqal nəfəsi


Çaqqal nəfəsi


Çaqqal nəfəsi


Çaqqal nəfəsi


Çaqqal nəfəsi


Çaqqal nəfəsi








**Araz FM**

Tweet 1

Like 43

Xəbər 706 dəfə oxunub

**Digər Xəbərlər:**

- 115 yaşlı Kinomuz
- "Çaqqal nəfəsi" milli kinematoqrafiyamızın inkişafına yeni nəfəs gətirəcək ...
- "Aydın" oktyabr ayından evinizin qonağı olacaq - FOTO - VİDEO
- Səxavət Nur yenidən radio aparıcılığına qayıtdı
- İranlı kinematoqraflar Azərbaycanda teleserial çəkir

**Geri**

Kateqoriya: Mədəniyyət, Həyat tərzi, Şou-biznes, Gündəm

**Rəy bildir**

Araz FM Radiosu 103.3 FM Copyright © 2011-2014
Məlumatlardan istifadə zamanı istinad vacibdir.
Design: Web Group